**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin**

# DAXİLİ KEYFİYYƏT KOMİSSİYASININ ƏSASNAMƏSİ

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin**
**Elmi Şurasının (24.11.2021-ci il, protokol №3) tarixli iclasının**
**qərarı ilə təsdiq edilmişdir.**

**Tarix** ______________

**İmza** ______________

**M.Y**

**2021**

ADNSU Elmi Şurası, ADNSU-nun daxili nizamnaməsinin verdiyi səlahiyyətlərə əsaslanaraq aşağıdakı əsasnaməni təsdiq edir.

Bu əsasnamə "ADNSU-nun Daxili Keyfiyyət Komissiyasının Əsasnaməsi" olaraq adlandırılır

## MƏQSƏD VƏ ƏHATƏLİLİYİ

Bu Əsasnamə ADNSU-nun Daxili Keyfiyyət Komissiyası-nın tədris, araşdırma fəaliyyətləri ilə inzibati xidmətlərin daxili və xarici keyfiyyət təminatı, fakültə və ixtisasların yerli və beynəlxalq akkreditasiya və keyfiyyətə nəzarət orqanları tərəfindən yoxlanması ərzində və (akkreditasiya) bu çərçivədə müəyyən edilmiş vəzifə, səlahiyyət və məsuliyyətləri ilə Keyfiyyət Komissiyalarının yaradılmasına və fəaliyyətinə dair prosedur və prinsipləri nizamlayır.

## KOMİSSİYANIN YARADILMASI, ÜZVLƏRİ VƏ FƏALİYYƏT MÜDDƏTİ

Komissiya rektorluq tərəfindən təklif edilən və Elmi Şura tərəfindən təsdiqlənən üzvlərdən ibarət olur: Rektorluq / fakültə / və əlaqəli inzibati departamentlərin rəhbərləri və ya nümayəndələri / tələbələri təmsil edən nümayəndə.

Daxili Keyfiyyət Komissiyasına rəhbərliyi rektor həyata keçirir. Rektorun olmadığı zamanlarda isə səlahiyyət verdiyi prorektor Daxili Keyfiyyət Komissiyasına rəhbərlik edir. Komissiya üzvlərinin fəaliyyət müddəti en az iki il, tələbə nümayəndənin fəaliyyət müddəti isə bir ildir. Fəaliyyət müddəti bitən üzv yenidən təyin edilə bilər.

## KOMİSSİYANIN FƏALİYYƏT PRİNSİPLƏRİ

ADNSU-nun Daxili Keyfiyyət Komissiyasının iclasları, ümumi üzv sayının çoxluğu ilə təşkil edilir və iclas iştirakçılarının əksər çoxluğu ilə qərar qəbul edilir. Bərabər səsvermə olduqda, rəhbərin səsi əsas hesab olunur. ADNSU-nun Daxili Keyfiyyət Komissiyası, 6 ayda bir dəfə iclas keçirir. Ehtiyac yarandığı təqdirdə rəhbərin çağırışı ilə təcili iclaslar təşkil edilir. İclasın gündəliyi, tarixi və yeri rəhbər tərəfindən müəyyən edilir və üzvlərə bildirilir.

## DAXİLİ KEYFİYYƏT KOMİSSİYASININ VƏZİFƏLƏRİ

- Universitetin strateji inkişaf planının hazırlanması ve yenilənməsi;
- Universitetin strateji inkişaf planı və hədəfləri isiqamətində təlim-tədris və araşdırma fəaliyyətləri ilə inzibati xidmətlərin dəyərləndirilməsi və keyfiyyətin inkişaf etdirilməsi ilə bağlı institusional keyfiyyət göstəricilərinin aşkar edilməsi və Elmi Şuraya təsdiq üçün təklif edilməsi;

- Universitetin daxili və xarici keyfiyyət təminatı işlərini Avropa Ali Təhsil Standartları təlimatları (ESG) çərçivəsində davam etdirmək və bu işləri Elmi Şuraya təsdiq üçün təklif etmək;

- Universitetin akademik və inzibati orqanlarını keyfiyyət təminatı sisteminin fəaliyyətlərinə daxil olmaları üçün təşviq etmək və bu istiqamətdə onları dəstəkləmək;

- Universitetin strateji inkişaf planında göstərilmiş hədəflər çərçivəsində performans indikatorlarını təqib etmək, yeni hədəflər müəyyənləşdirmək və bu çərçivədə görüləcək işlərin davamlılığını təmin etmək;

- Xarici keyfiyyət dəyərləndirmələrində institusional və heyət akreditasiyalarında akademik və inzibati orqanlar tərəfindən tətbiq ediləcək prinsipləri, keyfiyyət göstəricilərini və qaydaları müəyyənləşdirərək Elmi Şuraya təsdiq üçün təklif etmək;

- Strateji planlama müddətinin təşkilini təmin etmək;

- Universitetin strateji inkişaf planı və hədəfləri istiqamətində, akademik və inzibati xidmətlərin qiymətləndirilməsi, keyfiyyətinin yüksəldilməsi üçün görüləcək bütün istiqamətlərdəki işləri yerinə yetirmək və atılan addımların, cəhdlərin nəticələrini sorğu anketi vasitəsilə ildə ən az bir dəfə ölçmək;

- Universitetdə daxili keyfiyyət təminatı sistemini yaratmaq və hər il zəruri işləri görmək;

- Təqvim ilinin sonunda həmin ilə aid sorğu işlərini bitirərək yanvar – mart aylarında daxili dəyərləndirmə hesabatı hazırlamaq və Elmi Şuraya təsdiq üçün təklif etmək;

- Daxili (akademik və inzibati heyət üzvləri, tələbələr) və xarici maraqlı tərəflərin (işəgötürənlər, məzunlar, peşəkar təşkilatlar, araşdırma sponsorları, tələbələrin ailə üzvləri və s.) fikirləri üçün sorğu və dəyərləndirmə meyarları təyin etmək və onları daxili dəyərləndirmə sorğusuna, fəaliyyət planına əlavə etmək, hesabat və təkmilləşdirmə müddətində nəzərə almaq;

- Fəaliyyət və daxili qiymətləndirmə hesabatı nəticələri ilə birgə keyfiyyətin yüksəldilməsi üçün strategiyaların, fəaliyyət planının və performans indikatorlarının nəzərdən keçirilməsi və lazımi dəyişikliklərin və təkmilləşdirmələrin edilməsi üçün təkliflər vermək;

- Universitetin "xarici qiymətləndirmə" (akkreditasiya) müddətini başlatdığı zaman lazımi hazırlıqları etmək, xarici qiymətləndirici təşkilata hər növ dəstəyi vermək.

## AKADEMİK VƏ İNZİBATİ KEYFİYYƏT KOMİSSİYASI

Akademik Keyfiyyət Komissiyaları:

- Fakültə Keyfiyyət Komissiyaları – hər fakültənin dekanı, kafedra müdirləri və ya uygun görülən keyfiyyət təminatı istiqamətində təcrübəli müəllimlər və fakültənin tələbə nümayəndəsindən

ibarət olmaqla yaradılır.

- İxtisas Keyfiyyət Komissiyaları – kafedra müdiri, keyfiyyət istiqamətində təcrübəli 3 müəllim və ixtisası təmsil edən tələbə nümayəndədən ibarət olmaqla yaradılır.

İnzibati Departamentlərdəki Komissiyalar:

- Departament rəhbəri ilə rəhbərin təyin etdiyi iki inzibati heyət üzvündən ibarət olmaqla yaradılır. Həmin inzibati departamentdə heyət sayı kifayət etməzsə, rektorun qərarı ilə başqa departament heyəti üzvlərindən nümayəndə təyin edilir.

Akademik və İnzibati Keyfiyyət Komissiyaları nümayəndələrinin üzvlük müddəti iki ildir. Üzvlük müddəti başa çatmış şəxslər yenidən təyin edilə bilər.

Akademik və İnzibati Keyfiyyət Komissiyaları ümumi üzv sayının çoxluğu ilə təşkil edilir və iclas iştirakçılarının əksər çoxluğu ilə qərar qəbul edilir. Bərabər səsvermə olduqda, rəhbərin səsi həlledici hesab olunur.

## AKADEMİK VƏ İNZİBATİ KEYFİYYƏT KOMİSSİYASININ VƏZİFƏLƏRİ

- Universitetin strateji inkişaf planının hədəf və missiyası istiqamətinə uyğun olaraq tədris, tədqiqat fəaliyyətinin və inzibati xidmətlərin qiymətləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı departamentin daxili və xarici keyfiyyət təminatı sistemini yaratmaq;
- Alınan qərarları müvafiq bölmədə elan etmək, onların həyata keçirilməsinə töhfə vermək və nəticələrin monitorinqini aparmaq;
- Departamentin daxili qiymətləndirmə hesabatını hazırlamaq;
- Bu Əsasnamə və Daxili Keyfiyyət Komissiyasının müəyyən etdiyi digər prosedur və prinsiplərə uyğun olaraq, zəruri tədqiqatları həyata keçirmək.

“Təqdim edir”
ADNSU-nun tədris işləri üzrə prorektoru

dos. Qasım Məmmədov _______________